Elm və sənət adamları, ümumiyyətlə yaradıcı, ziyalı insanlar həmişə öz aralarında ünsiyyətə ehtiyac duymuş, buna həmişə çox əhəmiyyət vermişlər. Yeni kəşfimizi, yeni ideyamızı, yeni əsərimizi, içimizdə qovrulan düşüncələrimizi bizə bənzər birinə, bizi anlayacaq birinə söyləmək, sevinc və qayğımızı bölüşmək ehtiyacı danılmazdır.

Yeni olanı bilmək ehtirası, yeni olanı mütəxəssislərin öz ağzından eşitmək həvəsi ilə yanaşı maarifləndirmək istəyi də yaradıcı insanları bir yerə toplayan mühüm amillər sırasındadır.

2006-cı ilin yaz-yay aylarında Xəzər Universitəsinin Konfrans mərkəzində Elm və Sənət Məclisi təşkil etmək, heç bir sahə məhdidiyyəti qoymadan vacib hesab etdiyimiz problemləri müzakirəyə çıxarmaq barədə fikrimiz qətiləşdi. Hər dəfə bir və ya iki mütəxəssisin məruzəsini dinləmək, onları sual atəşinə tutmaq, söz, fikir söyləmək istəyənləri dinləmək, məruzə və müzakirənin nəticələrini əvvəlcə "Xəzər Xəbər" dərgisində, sonra isə qruplaşdırıb kitab şəklində nəşr etmək qərarına gəldik. 2006-ci il oktyabrın 10-da birinci məclis baş tutdu. Həm Azərbaycandan, həm də müxtəlif ölkələrdən mütəxəssisləri, elm və sənət adamlarını məruzə üçün dəvət etməyə başladıq. Qısa zamanda Elm və Sənət Məclisimiz tanındı və sevildi.

Canlı danışıq tərzini olduğu kimi saxlamağa çalışdığımız bu kitabda ikinci on məclisin (on birinci məclisdən iyirminci məclisə qədər) materialları çap olunur.

Hamlet İSAXANLI

ISBN 978-9952-20-046-1

Elm və Sənət Məclisi

11-20

# Elm və Sənət Məclisi

## 11-20



Hamlet İsaxanlı

*(Tərtibçi və redaktor)*